# "Gürcüstan və Azərbaycanla dəmir yolunda sərnişindaşımanın başlanacağına ümid edirik"

"Ankara ümid edir ki, Azərbaycan və Gürcüstan Türkiyə ilə dəmir yolunda sərnişindaşımanın təşkili məsələsində Bolqarıstandan nümunə götürəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülkadir Uraloğlu Cənub-Şərqi Anadolunun Tatvan bölgəsinə Ankaradan turist qatarının göndərilməsi mərasimində bildirib.

Nazir xatırladıb ki, İstanbul və Sofiya arasında qatarlar uğurla hərəkət edir. "Ümid edirik ki, yaxın vaxtlarda Azərbaycan və Gürcüstandan da oxşar təkliflər gələcək və Qarsa sərnişindaşıma layihəsini həyata keçirəcəyik", - deyə Ə.Uraloğlu qeyd edib.

Uraloğlu diqqəti əsas halqası Bakı-Tbilisi- Qars dəmir yolu olan Orta dəhlizin əhəmiyyətinə yönəldib. "Bu dəhliz sayəsində Çindən gedən qatar artıq Londona çata bilir. Bu təşəbbüs Prezident Rəcəb Tayyib Ərdoğanın həyata




keçirdiyi konsepsiyanın bir hissəsidir", - deyə türkiyəli nazir vurğulayıb.

O qeyd edib ki, 22 il ərzində Türkiyənin dəmir yolu sisteminin modernləşdirilməsinə və inkişafına 57 milyard dollar xərclənib. "Əgər 2002-ci ildə ölkəmizin dəmir yollarının uzunluğu 10948 kilometr təşkil edirdisə, 2023-cü ilin sonuna olan məlumata görə, bu rəqəm 3 min kilometr artıb ki, bunun da 2251 kilometri yüksəksürətli qatarlar üçündür", - deyə nazir bildirib.

Onun sözlərinə görə, 2053-cü ilə qədər Türkiyədə dəmir yollarının ümumi uzunluğu 29 min kilometrə çatacaq. "Biz 20 və 50 il üçün planlar tərtib edirik", - deyə nazir bildirib.

Uraloğlu həmçinin bildirib ki, Ankara və İzmir arasında sürətli qatar layihəsinin 2026-cı ilə qədər başa çatdırılması planlaşdırılır ki, bu da sərnişin qatarlarının saatda 350 km sürətlə hərəkət etməsinə imkan verəcək.

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 8 avqust (№ 167).- S.5.